

Səxavət Sahil

# Təmənnasız yazmaq

Təzəcənə yazıb bitiridiyin mətndən ləzzət almaq ifadəolunmaz bir hissdir. Dünyada zövq almaq üçün çoxsaylı məşğuliyyətlər, əyləncələr olsa da, əsl yazıçı üçün ilk növbədə yazının verdiyi xoşbəxtlik hər şeydən üstündür. Mətn insanın düşüncəsinin, təxəyyülünün məhsulu olsa da, hesab edirəm ki, onun bədəninin bir hissəsidir. Yazanda enerjin azalırsa, yorularsansa, deməli, bədənində nəsə azalır, hansısa enerji itir. Əslində, itmir, enerjinin saxlanması qanununa görə bir formadan digər bir formaya keçir və nəticədə mətn yaranır.

Yazmaq insana nə verir? Nə üçün yazırsan? Şöhrət üçünmü, pul üçünmü, oxuculara görəmi yoxsa özün üçünmü yazırsan? Sualları yenə də artırmaq olar. Təbii ki yazmaq üçün hər zaman "bəhanə" var. Bu sualları hər yazıçı bir cür cavab verə bilər. Bu da onların yanaşmasından asılıdır və cavabları şərti olaraq düzgün qəbul etmək lazımdır. Yazmaq hissinin yazıçı üçün alternativi yoxdur. Yazmaq hər şeydən əvvəl mənəvi bir tələbdir. Yəni özün üçün istənilən səbəb tapıb yazırsansa, bu səbəbdən də əvvəl şüuraltında yazıçılıq, şairlik azarı, yazmaq hissi gizlənir.

İndiki şəraitdə kitab bazarı olmadığına görə yazıçılar daha çox təmənnasız yazır. Oxucu qıtlığı da buna təsirsiz ötüşmür. Yazıçı ən azından yazı sənətinə yaxın bir işlə məşğul olmalıdır ki, həm yaradıcılıqla məşğul olsun, həm də işləsin, yaşayışını təmin etsin.

Yazmaq mənə görə təmənnasızdır. Yazdığını baha qiymətə satsan da belə əslində, yazmağın kökündə heç bir umacaq yoxdur və olmamalıdır. Əgər yazdığını al-ver predmentinə çevirmirsənsə, heç bir mükafat və ya bəxşiş gözləməli deyilsən.

Lev Tolstoyun isə qonorara, mükafata ehtiyacı yox idi. Bəs niyə yazırdı? Yazmaq hissi onu da öz əsarətinə almışdı. Tolstoy yazmaya bilərdimi? Təbii ki yox. Yazmaq eşqi bu suala cavab verir.

Tarixdən və yazıçıların bioqrafiyalarından bizə tanış olan o qədər yazıçı var ki, nəinki təmənnasız yazıblar, hətta yazdığına görə məhrumiyyətlərə, sürgünlərə məruz qalıblar, ölümlə üzləşiblər. İspan şairi Lorkanı və ya bizim Müşfiqi şair olduğuna görə güllələyiblər. Onların yazmaqdan savayı təmənnası yox idi və buna görə də ölüm hökmünə baş əyməli oldular.

Əsl yazıçı təmənna güdmədən, ürəyinin hökmü ilə yazmalıdır ki, yolundan dönməsin. Bəs yazıçı necə yaşamalıdır? Yazmaq üçün yaşamaq lazımdır axı?! Ən azından zəruri ehtiyaclar səni narahat etməli deyil.

Bir tərəfdən yazıçının fədakarlığını önə çəkirik, digər tərəfdən zəruri ehtiyaclarının ödənməsini istəyirik. Belə olduğu halda yazıçı nə etməlidir, necə addım atmalıdır?

Bu suala konkret cavab vermək çətindir. Bəli, ümumi mənada deyə bilərəm ki, yazıçı yazmaq üçün, yaşamalıdır, yazdığını satmalıdır, kiməsə ehtiyacı olmamalıdır. Fərdi olaraq isə hərə bunun öhdəsindən bir cür gəlir. Jurnalistika, nəşriyyat, köşə yazarlığı, redaktə və s işlər var ki, bununla pis-yaxşı yaşamaq olur. Lakin bunu yazıçıların hamısı edə bilmir axı. Yazıçılığa tamamilə yad olan sahədə işləyə-işləyə yazmaq təbii ki olar, amma bu fədakarlıq tələb edir. Əgər yazmaq sənə pul gətirmirsə, peşəni dəyiş, gəlir gətirən işlə məşğul ol. Onda da əlahəzrət yazmaq hissi səndən əl çəkməyəcək. Lakin yazmağa görə ən ağır zəhmət tələb edən əməklə də məşğul olmaq olar. Düzdü bu ağır əmək yazının keyfiyyətinə təsir edəcək, amma yenə yazmaqdan zövq alacaqsan. Bir sözlə, yazmaqdan həzz almaq istəyirsənsə, təmənna güdəməməlisən.

Kaspi 2020.- 29 fevral.-2 mart.- S.12.